# Allah kimə xeyir dilərsə, onu dində anlayış sahibi edər

Muaviyə (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət edir: "Allah kimə xeyir dilərsə, onu dində anlayış sahibi edər, mən sadəcə nemətləri bölüb paylayanam, (nemətləri) yetirən isə Allahdır. Bu ümmət Allahın əmri gəlincəyə (Qiyamətə) qədər Onun əhkamları üzərində olacaq, onlara müxalif olanlar onlara zərər vura bilməyəcəklər".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, Allah kimə xeyir istəsə, onu pak olan Allahın dinində anlayış istedadına yiyələndirər. Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) uca Allahın verdiyi ruzini, elmi və digər şeyləri bərabər bölüb paylayandır. Həqiqi mənada yetirən Allahdır, başqaları isə yalnız Allahın izni ilə fayda verə biləcək səbəblərdəndir. Bu ümmət Qiyamətə qədər Allahın əhkamları üzərində olacaq, əleyhdarları isə onlara zərər verə bilməyəcəklər.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee